ƏSASNAMƏ

“Ən yaxşı video dərs” Müsabiqəsinin Təşkili Qaydaları

1. Ümumi Müddəalar
1.1 Bu Əsasnamə orta təhsil müəssisələrinin 1-11-ci sinif tədris fənləri üzrə “Ən yaxşı video dərs” müsabiqəsinin keçirilməsi şərtləri və qaydalarını müəyyən edir.
1.2 Müsabiqə Distant( Online) təhsilə Dəstək təşəbbüsü çərçivəsində keçirilir.
1.3 Müsabiqənin təşkilatçıları: Kaspi Təhsil Şirkəti, STEMART, Peşəkar Təlim və İmtahan Mərkəzi, Innovative Business Products MMC

2. Müsabiqənin məqsəd və hədəfləri
2.1 Azərbaycan müəllimlərinin video dərs hazırlama bacarıqlarını inkişafını stimullaşdırmaq;
2.2 Müəllimlərin təhsil prosesində İKT-dən istifadə bacarıqlarını inkişaf etdirməyə həvəsləndirmək;
2.3 Müəllimlər arasında video dərs hazırlama sahəsindəki qabaqcıl təcrübənin paylaşılması;
2.4 Eyni zamanda bu video dərslərin əlavə tədris resursları kimi Azərbaycan məktəblilərinin pulsuz istifadəsinə verilməsidir.

3. Müsabiqə iştirakçıları
3.1 Müsabiqədə Azərbaycan, rus və ingilis bölmələri üzrə, çalışdığı dövlət və ya özəl təhsil müəssisəsindən asılı olmayaraq bütün müəllimlər iştirak edə bilər.
3.2 Hər bir iştirakçı müsabiqəyə yalnız bir dərslə iştirak edə bilər.

4. Müsabiqənin təşkili şərtləri və qaydaları
.
4.1 Müsabiqə 3 mərhələdən ibarət olmaqla 2 may – 10 iyun 2020-ci il tarixlərində keçirilir:
4.1.1 Birinci mərhələdə (2 – 15 may 2020) iştirakçıların müraciətləri və video-dərslər qəbul olunur (Qəbul olunan materiallar müəllifik hüquqları qorunmaq şərti ilə geri qaytarılmır)
4.1.2 İkinci mərhələdə (15 may 2020 – 31 may) – video-dərslərin münsiflər heyəti tərəfindən qiymətləndirilməsi həyata keçirir.
4.1.3 Üçüncü mərhələdə (10 iyun 2020-ci il tarixinədək) – qiymətləndirmə nəticələrinə uyğun olaraq qaliblər elan olunur.
4.2 Müsabiqəyə qoyulan tələblər aşağıdakılardan ibarətdir:
4.2.1 Müsabiqəyə təqdim olunan video-dərs maksimum 10 dəqiqə olmalıdır.
4.2.2 Materiallar təhsilverici xarakterli olmalı, qəbul olunmuş elmi faktlara zidd olmamalı, etik və qanuni normalardan kənara çıxmamalıdır.
4.4.3 Materialın tərtibində istifadə olunan əlavə resurslar müəlliflik hüquqlarını pozmamalı, istifadə olunan informasiyanın mənbəyi göstərilməlidir.
4.4.4 Materialların hazırlanmasında proqram təminatı və hazırlanma vaistələrinin seçilməsinə məhdudiyyət qoyulmur.(video çəkiliş formatında olmaq şərti ilə)
4.5 Video çəkiliş formatında hazırlanan dərs YouTube sosial şəbəkəsində “siyahıda olmayan” - unlisted (hər kəs üçün açıq) formatda paylaşılmalıdır.
4.5.1 .Videonun adı aşağıda qeyd olunan formatda olmalıdır:

video müsabiqə 2020

- “Ən Yaxşı Video Dərs Müsabiqəsi” -“Fənn” “Sinif” “Mövzu” (Nümunə: Ən yaxşı video dərs müsabiqəsi – Fizika 7-ci sinif Mexanika)
4.5.2.- İştirakçılar müsabiqəyə aşağıdakı şəkildə qeydiyyatdan keçir:
- Video dərs hazırlanır və təyin edilmiş formada Youtube platformasına yüklənir.
- Distant Dərs Müsabiqəsinin qeydiyyat səhifəsinə tələb olunan məlumatlar doldurulur və video dərsin linki müvafiq xanaya yerləşdirilir.

5. Müsabiqəyə təqdim olunan video-dərsin qiymətləndirilməsi kriteriyaları

Meyarlar

1. Dərsin strukturu
- Dərsin mərhələlərinin aydın seçilməsi
- Süjet xətti

2. Məzmunu - Kontent
- Dərsin Məzmunu
- İnnovasiya və Orjinallıq
- Materialların keyfiyyəti
- İKT resurslarından istifadə
- Aktuallıq

3. Təqdimat
- Görünüş və Davranış
- Nitq
- Audio keyfiyyət
- Video Keyfiyyət
- Zamanlama
- Metodiki və Pedaqoji bacarıq

Qiymətləndirmə
- Hər bir kriteriyaya 0-4 bal ilə qiymətləndirilir.
- Hər bir meyar üzrə orta bal hesablanır.
- Meyarlar əhəmiyyətinə görə təsnifatlaşdırılıb cəmlənir.
- Ən yüksək bal toplamış iştirakçı qalib elan olunur.
- Nəticələr elan olunduqdan sonra apellyasiya şikayəti qəbul olunmur.

6. Müsabiqənin Təşkilati Komitəsi və Münsiflər Heyəti

6.1 Müsabiqənin təşkili və keçirilməsi üçün Təşkilati Komitə və Münsiflər Heyəti yaradılır:
6.1.1 Təşkilati Komitənin üzvləri aşağıdakılardır:
Elnur Əliyev – sədr
Elşən Əliyev – üzv

Video müsabiqə 2020

Aydın Əliyev – üzv
Əli İsgəndərov – üzv
Aqil Allahverdiyev – üzv
Sahil Əliyev – üzv
Xalidə İsayeva – üzv
Həsən İbrahimov - üzv

7. Müsabiqə nəticələrinin çıxarılması və qaliblərin təltif olunması
7.1 Müsabiqə materiallarının qiymətləndirilməsi nəticəsində qaliblər müəyyən olunur.
7.2 Nəticələr 10 iyun tarixində elan olunur.
7.3 İlk üç yerin qalibi mükafat və diplom, həvəsləndirici mükafatlar, digər bütün iştirakçılar isə şəhadətnamə-sertifikat ilə təltif olunur.
1 –ci yer-700 AZN
2-ci yer-500 AZN
3-cü yer-300 AZN

7.4 Müsabiqə nəticələri və qaliblərlə bağlı məlumatlar Kütləvi İnformasiya Vasitələri və təşkilatçı şirkətlərin saytlarıı və sosial şəbəkələrdəki səhifələrində paylaşılır.

Video müsabiqə 2020